# Biz hərb istəmirik...

## *amma hərbə hazırıq*

Azərbaycanın hərb istəmədiyini artıq dünyada hamı bilir. Dövlət başçımız dəfələrlə xatırladıb ki, biz hərb tərəfdarı olsaydıq , 25-30 il işğalçı dövlətlə danışıqlar masasında oturmazdıq. Azərbaycan əraziləri işğala məruz qalmış ölkə ola-ola, beynəlxalq hüququn verdiyi üstünlüklərə baxmayaraq , ermənilərlə sülh danışıqları aparırdısa , bu, xalqımızın və dövlətimizin sülhə nə dərəcədə sadiq olduğunun göstəricisi idi. Ancaq işğalçı dövlət bütün əndazələri aşanda, xalqımızı açıq şəkildə təhqir edəndə, dini ibadət yerlərimizi murdarlayanda, tarixi-mədəni abidələrimizi yer üzündən siləndə Azərbaycan artıq sülh tərəfdarı olsa da, hərb yolunu seçməli idi və seçdi də. Nəticədə dünya erməniliyi heç zaman görmədiyi, indi də gözləmədiyi məğlubiyyətlə barşaraq, rəzil oldu.

Azərbaycanın bu uğurunun təməlində çoxsaylı faktlar dayanır. Onlardan biri də dövlətin ordu quruculuğuna verdiyi önəmdir. Cənab Prezidentin martın 12-də iştirak etdiyi tədbiri də son 17 ildə davam edən mükəmməl ordu quruculuğunun tərkib hissəsi kimi qəbul etdik.

***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev martın 12-də – Daxili Qoşunların yaranması günündə Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Bakının Sabunçu rayonunda yeni inşa olunan "N" saylı hərbi hissəsinin açılışında iştirakına həsr olunmuş televiziya materialına baxanda istər-istəməz gənclik illərimizdə tez-tez eşitdiyimiz mahnının sözlərini xatırladım: "Biz hərb istəmirik, hərbə hazırıq!"***

Dövlət başçımıza məlumat verildi ki, bu hərbi hissədə şəxsi heyətin xidmət, məişət, sıra və döyüş hazırlığı səviyyəsinin yaxşılaşdırılması tədbirləri çərçivəsində qərargah və əsgər kazarması, yeməkxana, tibb, qarovul, texniki nəzarət, buraxılış məntəqələri, digər köməkçi binalar inşa olunub, idman şəhərciyi yaradılıb. Yeni binalar zəruri avadanlıq və inventarla təchiz edilib. Mövcud binalar isə əsaslı təmir olunub. Hərbi hissədə mərkəzləşdirilmiş havalandırma, yanğından mühafizə və videomüşahidə sistemləri quraşdırılıb.

Bu məqamda xatırladım ki, mənim diqqətimi daha çox çəkən başqa bir məqam da var idi. Belə ki, Birinci Qarabağ müharibəsində olduğu kimi, Vətən müharibəsində də Daxili Qoşunların xüsusi təyinatlıları vahid komandanlıq altında Azərbaycanın haqq işinin müdafiəsində fəal iştirak ediblər. Birinci Qarabağ müharibəsində Daxili Qoşunların 9 hərbçisi Azərbaycanın Milli Qəhrəmanı fəxri adına layiq görülüb. 44 günlük Vətən müharibəsində Daxili Qoşunların şəxsi heyətindən 66 nəfər şəhid olub, 346 hərbi qulluqçu isə yaralanıb, 4 nəfər Vətən Müharibəsi Qəhrəmanı adına layiq görülüb. Yəni bu qurumun hərbçiləri ilə, sözün həqiqi mənasında, fəxr etməliyik və edirik.

Ancaq onlar təkcə qanişən düşmənə qarşı vuruşmurlar, lazım gələndə milli dövlətçiliyimizin qorunması üçün də müvafiq tapşırıqların öhdəsindən də gəlirlər. Tədbirdə xatırladıldı ki, Daxili İşlər Nazirliyinin vahid sisteminin mühüm struktur hissələrindən biri kimi Daxili Qoşunlar şəxsiyyətin, cəmiyyətin və dövlətin mənafeyini, vətəndaşların Konstitusiya hüquqlarını və azadlıqlarını cinayətkar qəsdlərdən qorumağa, mühüm dövlət obyektlərinin, kommunikasiya qurğularının mühafizəsini həyata keçirməyə, ictimai asayişin mühafizəsinin, ictimai təhlükəsizliyin təmin olunmasını, habelə qanunvericiliklə müəyyən edilmiş digər vəzifələri bundan sonra da layiqincə yerinə yetirməyə qadirdir və hazırdır.



Yəni biz heç bir qarşıdurmanı istəmirik, ancaq lazım gəlsə istənilən belə halın qarşısını almağa qadirik, mahnıda deyildiyi kimi, biz hərb istəmirik, ancaq hərbə hazırıq. İnanıram ki, dövlət başçımızın iştirakı ilə keçirilən həmin tədbirdən Ermənistandakı revanşist qüvvələr də öz "pay"larını götürəcəklər. İrəvan siyasətçiləri ayıq olsalar, bundan nəticə çıxara bilərlər.

***Telman HAQVERDİYEV,***
***ADPU-nun dosenti, fəlsəfə üzrə fəlsəfə doktoru***

Xalq qəzeti 2021.- 14 mart.- S.6.